

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 oktyabr 2024-cü il №81 (2892) https://mod.gov.az Qiymәti 30 qәpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,
Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 oktyabr 2024-cü il

## Prezident İlham Əliyev Qubadlının işğaldan azad olunması ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlının işğaldan azad edilməsinin ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir:

"Zəfər tariximiz - Qubadlının Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Türkiyə hökuməti: Ölkə sərhədlərinin ətrafında “terrorustan” qurulmasına əsla yol verilməyəcək

İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə təhlükəsizlik müşavirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Atatürk Hava Limanının Dövlət Qonaq Evində mətbuata qapalı şəraitdə təşkil olunan iclas 1 saat 15 dəqiqə davam edib.

İclasdan sonra verilən yazılı açıqlamada Türkiyə Aviasiya və Aerokosmik Sənaye Səhmdar Cəmiyyətinin (TUSAŞ) Ankaradakı müəssisəsində törədilən terror aktı, eləcə də terrorla mübarizdə atılan və atılacaq addımları müzakirə edildiyi bildirilir.

Açıqlamada terrorla mübarizə və terrordan təmizlənən Türkiyə üçün ciddi səylərin davam edəcəyi, ölkə sərhədlərinin ətrafında "terrorustan" qurulmasına əsla yol verilməyəcəyi vurğulanıb.

Toplantıda xarici işlər naziri Hakan Fidan, milli müdafiə naziri Yaşar Gülər, daxili işlər naziri Ali Yerlikaya, Baş Qərargah rəisi, ordu generalı Metin Gürak, Türkiyə Milli Kəşfiyyat Təşkilatının sədri İbrahim Kalın, Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Fahrettin Altun, administrasiyanın Müdafiə Sənayesi Baş İdarəsinin sədri Haluk Görgün, ölkə başçısının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə baş müşaviri Akif Çağatay Kılıç və hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədrinin müavini Ömer Çelik iştirak ediblər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfər edib.*

Dövlətimizin başçısının təyyarəsini Kazan Beynəlxalq Hava Limanına enərkən hərbi helikopterlər müşayiət edib.

Kazan Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qarşılayıb.

* * *

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

Dövlətimizin başçısını salamlayan **Rüstəm Minnixanov** deyib:

- İlham Heydər oğlu, fürsətdən istifadə edərək Rusiya-Azərbaycan münasibətləri çərçivəsində respublikamıza göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim. Biz bunu çox yüksək qiymətləndiririk və əlbəttə ki, bizim Prezidentin belə bir dövlət səfərini həyata keçirdiyinə görə fəxr edirik. Həmin səfəri çox yaxşı işıqlandırdılar. Bu yaxınlarda Siz bizim rəhbəri təbrik etdiniz, çoxlu işgüzar məsələ var idi. BRICS-i bizə etibar ediblər. Vaxt tapıb gəlməyiniz və iştirak etməyiniz bizim üçün böyük şərəfdir. İcazə versəniz, həmkarlarımızla gördüyümüz işlərlə bağlı bəzi məsələləri məruzə etmək istərdim.

Prezident **İlham Əliyev** deyib:

- Rüstəm Nurqaliyeviç, sağ olun. Bir daha qardaş torpaqda olmağıma şadam. İlk növbədə, Sizi və Tatarıstan Respublikasının bütün sakinlərini bu əlamətdar hadisə - BRICS sammitinin, həmçinin "BRICS+"un keçirilməsi münasibətilə təbrik etmək istərdim. Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir. Ona görə də əvvəlcədən səmimi təbriklərimi çatdırıram. Əminəm ki, hər şey ən yüksək səviyyədə keçəcək.

Əlbəttə, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. Siz də qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti bu ilin avqustunda Azərbaycana dövlət səfəri etdi. Bundan sonra da biz görüşmüşük. Beləliklə, ikitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır. Bu gün onları müzakirə edəcəyik. Bizim yoldaşlarımız da görüşümüzə hazırlıqlı gəliblər. Zənnimcə, yaxın vaxtlarda yaxşı nəticələrin şahidi olacağıq. Fürsətdən istifadə edərək, bir daha təbriklərimi çatdırmaq və Sizin üçün münasib bir vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm.

Rəis **Rüstəm Minnixanov**: Sağ olun. Biz həm işgüzar, həm də turistik baxımdan imkan taparaq dünya səviyyəli kompleksləri qiymətləndirdik və onlara heyran olduq. Mən hələ Bakını demirəm. Bakı bizim üçün işləri necə təşkil etmək, təcrübə toplamaq baxımından özlüyündə bir örnəkdir. Bizim artıq ziyarət etdiyimiz turistik dağ-xizək mərkəzi isə, əlbəttə, hamımızı valeh etdi. Bunun üçün Sizə çox sağ olun deyirik.

Prezident **İlham Əliyev**: Gələ bilərsiniz. Elə mövsüm də yenicə başlayır, gəlin. Yeri gəlmişkən, artıq ilk qar yağıb.

Rəis **Rüstəm Minnixanov**: Biz Sizin pərəstişkarınızıq.

Prezident **İlham Əliyev**: Sağ olun. Belə bir sürpriz haqqında təyyarədə öyrəndim. Sağ olun.

Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında Fərman oxundu: "Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev "Dostluq" ordeni ilə təltif olunur".

Rəis **Rüstəm Minnixanov**: Bu, "Sollers" şirkətidir.

Prezident **İlham Əliyev**: Bilirik.

Rəis **Rüstəm Minnixanov**: Həmin avtomobillərdən ən yaxşı yerlərdə istifadə etmək üçün xahiş etmişdik.

Prezident **İlham Əliyev**: Çox sağ olun, Rüstəm Nurqaliyeviç. Belə yüksək mükafata görə təşəkkür edirəm. Bu, mənim üçün həqiqətən də böyük sürprizdir. Bu barədə təyyarə Kazana enəndə öyrəndim. Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm. Elə təyyarədə Sizin Azərbaycana və Bakıya sonuncu səfərinizi xatırlayırdım. Siz həm Cəbrayılda, həm də Zəngilanda tatar icması ilə birlikdə Sabantuy bayramında iştirak edirdiniz. Hədiyyəyə görə də sağ olun. Biz onu elə Sizin olduğunuz həmin bölgələrə - Zəngilana, Cəbrayıla göndərəcəyik, orada onlara çox ehtiyac var. Bu mükafata görə Sizə bir daha təşəkkürümü bildirirəm.

* * *

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olub.

German Qref rəhbərlik etdiyi bankın həyata keçirdiyi işlər, o cümlədən bankın maliyyə sektoru ilə yanaşı, rəqəmsallaşma həlləri vasitəsilə səhiyyə, sosial, təhsil və digər sahələrlə bağlı fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verib. O, Azərbaycanın sürətli iqtisadi yüksəlişini və sosial inkişaf meyillərini xüsusi qeyd edib.

Görüşdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

(Əvvəli 1-ci səhifədə)

Milorad Dodik Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş edib.

Milorad Dodik Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. O, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırıb.

"Siz suveren Azərbaycanın güclü Liderisiniz. Güclü Lider olmadan güclü dövlət də ola bilməz", - deyən Milorad Dodik Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurla inkişaf etməsini məmnunluqla qeyd edib.



O, investisiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyərək, Azərbaycanın yol infrastruktur şirkətlərinin Balkan regionunda uğurlu layihələr həyata keçirdiyini qeyd edib və Bosniya və Herseqovinanın da bunda maraqlı olduğunu vurğulayıb.

Prezident İlham Əliyev həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı Bosniya və Herseqovinaya səfərini məmnunluqla xatırlayıb.

Prezident İlham Əliyev enerji, nəqliyyat infrastrukturu və investisiyalar sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 23-də Kazanda Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olub.

Laos Prezidenti ölkəsi ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu vurğulayaraq iqtisadiyyat, ticarət, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün əlverişli perspektivlərin mövcudluğunu qeyd edib.

Thonqlun Sisulit hələ 1981-ci ildə Bakıda olduğunu məmnunluqla xatırlayaraq, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini vurğulayıb. O, sovetlər dövründə çox sayda laoslu mütəxəssisin Azərbaycanda təhsil almasına görə təşəkkürünü bildirərək, bu gün də həmin şəxslərin Laosda nazir, nazir müavini və digər rəhbər vəzifələrdə fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini deyib.

Thonqlun Sisulit dövlətimizin başçısını Laosa səfərə dəvət edib.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti dəvətə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadiyyat, ticarət, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq işçi qrupunun yaradılması və mütəxəssislərdən ibarət hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasını qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın təhsil sahəsində Laosa bundan sonra da dəstək göstərməsi imkanlarına toxunub.

Görüşdə gələn il Azərbaycan ilə Laos arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulanıb, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı qeyd edilib.

* * *

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olub.

Dilma Russeff Azərbaycanda COP29-un keçirilməsini xüsusi qeyd edərək, bu tədbirdə iştirak edəcəyini məmnunluqla vurğulayıb. O, iqlim maliyyələşməsi mövzularının beynəlxalq maliyyə institutlarının diqqət mərkəzində olduğunu deyib və bu nöqteyi-nəzərdən Bakıda keçiriləcək COP29-un önəminə toxunub.

Söhbət zamanı qarşılıqlı maraq doğuran əməkdaşlıq imkanları müzakirə edilib.

* * *

Oktyabrın 23-də Kazanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XVI BRICS Sammitinin keçirilməsi münasibətilə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gedib.




Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi salamlayıb.

* * *

Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gedib.

Əvvəlcə XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının nümayəndə heyətləri başçıları - iştirakçılar birgə foto çəkdiriblər.

Rusiya Prezidenti Vladimir Putin çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

Hər şeydən əvvəl dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim.



Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən



birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

Prezident **Vladimir Putin** dedi: Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm. Çox sağ olun.

* * *

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

* * *

Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.

Görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə nazirinin Qırğızıstana rəsmi səfəri







*Qırğızıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə görüşüb.*

Qırğız Respublikası Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib.



Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qırğız Respublikası Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov səfəri çərçivəsində Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə birgə Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.

Abidə önünə əklil qoyulub, 1916-cı ildə baş vermiş faciə qurbanlarının xatirələrinə ehtiram nümayiş etdirilib.

**Müdafiə Nazirliyinin materialları əsasında**



# Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ağacəkmə aksiyası keçirildi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bununla əlaqədar olaraq respublikamızda fəaliyyət göstərən nazirlik, idarə, müəssisə və təşkilatlarda geniş tədbirlər planı hazırlanıb. Qeyd olunan Sərəncamın icrası ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda da müxtəlif miqyaslı tədbirlər keçirilir. Belə tədbirlərdən biri də ağacəkmə aksiyasıdır.

Bu günlərdə növbəti belə ağacəkmə aksiyasına, eləcə də Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) töhfə vermək məqsədilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) əməkdaşları Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müxtəlif növ ağaclar əkdilər.

Aksiyadan əvvəl BHİK-nin sədri Kərim Rzayev keçirilən bu cür tədbirlərin əhəmiyyətindən danışdı: "Azərbaycan Respublikası Prezidentinin 2024-cü ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi ilə əlaqədar imzalanmış Sərəncam ətraf mühitin qorunması, iqlim dəyişikliyinə qarşı mübarizə və dayanıqlı inkişaf naminə atılan mühüm bir addımdır. Biz 2024-cü ildə həmrəylik ruhunu önə çəkərək daha yaşıl və təmiz gələcək uğrunda bir araya gəlməliyik. Bu il, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyimiz üçün bu müzakirələrdə Azərbaycanın iqlim siyasətini dünya ictimaiyyətinə təqdim etməyə hazır olmalıyıq. Bu gün burada keçirilən ağacəkmə aksiyası "Yaşıl dünya" ideyasının bir hissəsidir. Ağaclar yalnız estetik bir gözəllik deyil, həm də ekosistemimizin qorunmasında, hava keyfiyyətinin yaxşılaşmasında, torpağın məhsuldarlığının artırılmasında və iqlim dəyişikliklərinə qarşı mübarizədə əsas rol oynayır. Azərbaycan Ordusunun bu aksiyada iştirak etməsi həmrəylik və birlik mesajını daha da gücləndirir. Hər birimiz fərd olaraq, bu mübarizənin bir parçasıyıq. Hər bir ağac bizim gələcək nəsillərə daha sağlam bir mühit buraxma arzumuzun simvoludur", - deyə sədr qeyd etdi.



Daha sonra aksiya iştirakçıları müxtəlif növ həmişəyaşıl ağacları Təlim və Tədris Mərkəzinin ərazisində əkdilər. Tədbirdə iştirak edənlər əkilən bu ağacların böyüyərək gələcəkdə ekosistemə böyük fayda verəcəklərini bildirdilər. "Əkilən ağacların yalnız torpağa kök salmadığını, eyni zamanda, ürəklərdə də bir bağlılıq, sevgi yaratdığına inanırıq. Hər bir ağac mübarizəmizin, həmrəylik ruhumuzun və gələcək nəsillərə olan məsuliyyətimizin simvoludur. Bizim bu aksiyada iştirak etməyimiz sadəcə bir ekoloji təşəbbüs deyil, həm də bir çağırışdır. Gəlin, birlikdə daha yaşıl, daha təmiz bir dünya yaratmağı hədəfləyək. Unutmayaq ki, hər birimizin atdığı kiçik bir addım gələcəkdə böyük dəyişikliklərə səbəb ola bilər. Hər kəsin böyük qayğı və həssaslıqla əkdiyi bu ağaclara qulluq etmək artıq mənəvi borclarımızdan biridir. Sevinirik ki, təbiətimizin yaşıllaşmasında kiçik də olsa bizim payımız oldu. Bu gün əkdiyimiz bu kiçik ağaclar bir neçə il sonra böyüyüb öz yaşıllıqları ilə təbiətimizə gözəllik qatacaqdır", - deyə komitənin əməkdaşları bildirdilər.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



### Tarix yazan oğullar

# Əbədiyyətə qovuşan ömür

***Doğru deyiblər ki, Vətən uğrunda şəhidlik zirvəsinə yüksələnlər ölmür, əbədi həyat qazanırlar. Bu yüksək məqam hər kəsə nəsib olmur. Vətənə, xalqa, torpağa canını fəda etməyi bacaran, sinəsini Vətən üçün sipər edənlər şəhidlik zirvəsinə ucalırlar. 44 günlük Vətən müharibəsi göstərdi ki, doğma torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verməyə hazır olan minlərlə oğullarımız var.***




Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Taleh Məhərrəm oğlu Abdullayevin xatirəsinə həsr olunan anım tədbiri keçirildi.

Tədbirdə ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları iştirak etdilər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərkəzin əməkdaşları 44 günlük Vətən müharibəsində igid oğullarımızın göstərdikləri misilsiz şücaətlərdən, şəxsi fədakarlıqdan ətraflı danışdılar. Bildirdilər ki, onların sayəsində 30 ilə yaxın işğalda olan torpaqlarımız Müzəffər Ali Baş Komandanın yüksək sərkərdəlik fəaliyyəti və həyata keçirdiyi uğurlu diplomatik siyasəti nəticəsində azad olundu.

Vətən müharibəsində igidlik göstərənlərin sırasında olan Taleh Abdullayev də heç zaman unudulmayacaq, vətənsevər insanların qəlbində bir ömür yaşayacaq. Bildirildi ki, Taleh Abdullayev 1993-cü il iyunun 6-da Gəncə şəhərində anadan olub. 25 saylı tam orta məktəbdə təhsil alıb, təhsil ocağının ictimai həyatında fəal iştirak edib. Ona göstərilən etimadı həmişə doğruldan Taleh bədii ədəbiyyata, tarixi kitablara həmişə maraq göstərib. Tariximizdən bəhs edən kitabları oxumağa, filmlərə baxmağa üstünlük verib. Ölkəmizə qarşı elan olunmamış müharibənin törətdiyi faciələr onda da düşmənə qarşı nifrət hissi yaradıb. Taleh həmişə inanıb ki, Vətən torpaqları işğaldan azad olunacaq və o da xilaskarlar sırasında yer alacaq.

Müddətli həqiqi hərbi xidmətə başlayanda bu istəyi daha da möhkəmlənib. Xidməti borcunu yerinə yetirərkən təhkim olunmuş silahından məharətlə istifadə etməyi öyrənib. Təlim və məşğələlərdə bilik və vərdişlərini həmişə artırmağa can atıb, nümunəvi əsgər kimi tanınıb. Ordu sıralarından tərxis olunsa da, istənilən vaxt silahdaşlarının yanında olacağını qətiyyətlə bildirib.

27 sentyabr 2020-ci ildə düşmənin genişmiqyaslı təxribatlarının qarşısının alınması və torpaqlarımızın azad olunması məqsədilə Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatına başladı. Minlərlə qeyrətli oğul Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazır olduğunu bildirdi. Beləliklə, torpaqlarımız addım-addım işğaldan azad olunmağa başladı. Taleh Abdullayev də "N" hərbi hissəsinin tərkibində düşmənə qarşı vuruşurdu. Döyüş tapşırıqları yeni-yeni qələbələrlə yerinə yetirilir, torpaqlarımız azad olunurdu. 2020-ci il oktyabrın 17-də Füzuli rayonu ərazisində gedən ağır döyüşlər zamanı Taleh Abdullayev düşmən gülləsinə tuş gəlir və canından çox sevdiyi Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlir. O, Gəncə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Taleh Məhərrəm oğlu Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medallarına layiq görülür.

Tədbirdən sonra şəhidin məzarı ziyarət olundu, üzərinə güllər düzüldü, xatirəsi böyük ehtiramla yad edildi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

### Medallı igidlərimiz

# Vətənə xidmət fədakarlıq tələb edən şərəfli yoldur

***Vətənə xidmət bir ömürlük məhəbbət, fədakarlıq tələb edən şərəfli bir yoldur. Hər bir hərbi qulluqçumuz təkcə döyüş meydanlarında qazanılan qələbələrin deyil, həm də Vətən sevgisinin canlı simvoludur. Mayor Namiq Hacıyev də belə hərbçilərdəndir. O, həyatını Vətənə xidmətə həsr etməklə təkcə peşəsini deyil, eyni zamanda, öz varlığını Azərbaycan xalqının mübarizə ruhuna bağlayıb. Onun döyüşlərdəki şücaəti vətənpərvərliyin və peşəkarlığın ən gözəl nümunəsidir.***



N.Hacıyev 1987-ci il fevralın 28-də Ağdam rayonunun Şelli kəndində dünyaya gəlib. Uşaqlıqdan hərb sənətinə böyük marağı olub. Heydər Əliyev adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. Zabit daha sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təhsilini davam etdirib.

N.Hacıyev 44 günlük Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında da iştirak edib. Mayor N.Hacıyev Vətən müharibəsində göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Zabit 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatında da iştirak edib: "24 saatdan az müddətdə düşmənin məğlub edilməsi, ərazi bütövlüyümizin və suverenliyimizin tam bərpa olunması ilə sona çatan bu əməliyyatı dünya hərb tarixinin mükəmməl örnəyi hesab etmək olar. Antiterror əməliyyatı Azərbaycanın hərbi gücünün, ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə davam etdirildiyini və xalqımızın qələbə əzminin sarsılmaz olduğunu bir daha nümayiş etdirdi. 44 günlük Vətən müharibəsində başlayan tarixi missiyamızın tam yekunlaşması məhz antiterror əməliyyatı ilə baş tutdu", - deyə zabit bildirdi.

"Siz öz həyatınızda və hərbi karyeranızda hansı anları ən yaddaqalan hesab edirsiniz?" - sualını zabitimiz bu cür cavablandırdı. "Mənim üçün ən yaddaqalan anlardan biri 44 günlük Vətən müharibəsindəki döyüşlərdir. Bu müharibə işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda apardığımız haqq savaşımız idi. Torpaqlarımızın işğaldan azad olunması hər birimiz üçün böyük bir qürur mənbəyi oldu".

"Hər birimiz özümüzü inkişaf etdirməli, biliklərimizi artırmalıyıq. Vətənə sevgimizi sözlərlə deyil, əməllərimizlə də göstərməliyik. Hər zaman inamla irəliləmək, çətinliklərə sinə gərmək və vətənpərvərlik ruhunu daim yaşatmaq borcumuzdur. Vətən bizə birgə yaşamaq, çalışmaq və onu müdafiə etmək imkanı verən yerdir. Bu torpaqda yaşamaq hər birimiz üçün qürurdur. Mənim üçün xidmət etdiyim ordu bir ailədir. Hər birimiz öz öhdəliyimizi layiqincə yerinə yetirməliyik", - deyə mayor N.Hacıyev dedi.

Mayor N.Hacıyevin xidməti, döyüşlərdəki nailiyyətləri yalnız onun özünün deyil, bütün Azərbaycan Ordusunun gücünü, birliyini və iradəsini əks etdirir. Onun kimi zabitlərimizin sayəsində Azərbaycan Ordusu hər zaman müzəffər olacaq, xalqımız əmin-amanlıq içində yaşamağa davam edəcəkdir. Bu gün biz qəhrəman oğullarımızın simasında Vətənə sevgimizi, ona olan bağlılığımızı və milli birliyimizi bir daha təsdiq edirik.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**



# HHQ-nin helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib

2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, uçuş heyətlərindən hazırlıq barədə məruzələr qəbul edildikdən sonra pilotların təlim uçuşunun şərtləri və təhlükəsizlik qaydaları barədə nəzəri bilikləri yoxlanılıb.

Daha sonra pilotlar helikopterlərə nəzarət baxışı keçiriblər.

Bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən pilotlar təlim-məşq uçuşlarının planına uyğun olaraq, helikopterlərlə havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, hava və yerüstü hədəflərin aşkar edilməsi, komanda qərargah məntəqələri ilə əlaqələrin yaradılması, eləcə də digər fəaliyyətlər üzrə təlim tapşırıqlarını yerinə yetiriblər.

Döyüş hazırlığı və praktiki vərdişlərin daha da artırılması məqsədilə keçirilən təlim-məşq uçuşlarında pilotlarımız yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Hərbi vəzifəlilərin növbəti təlim toplanışı davam edir



Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, ehtiyatdan çağırılan hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunurlar.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılır, onlara təhlükəsizlik qaydaları çatdırılır, eləcə də sıra hazırlığı üzrə məşğələlər keçirilir.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, təlim sahəsində praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra ediləcək.

## 25 oktyabr - Qubadlı Şəhəri Günü

# Qubadlının azadlığa qovuşması cəsarətin, qələbə əzminin və peşəkarlığın nəticəsidir

*2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsindəki qələbəmizdən danışarkən Qubadlının işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarını da xüsusi vurğulamaq lazımdır. 44 günlük haqq savaşımızda ən qanlı döyüşlərin getdiyi ərazilərimizdən biri də həmin rayondur.*




Rayon əsasən dağlıq ərazidə yerləşib və burada hündürlüyü 1000-2000 metrdən yüksək olan bir neçə dağ zirvəsi var. Qubadlı rayonunu uzun illər işğalda saxlayan erməni silahlı birləşmələrinin buradakı yüksəkliklərdə yerləşməsi və bunun nəticəsində nail olduğu böyük strateji üstünlüklər düşmən qüvvələrinə güclü müqavimət göstərə bilmək imkanı verirdi. Bütün bunlara baxmayaraq, Müzəffər Ali Baş Komandanın əks-hücum əmrini böyük ruh yüksəkliyi ilə yerinə yetirən ordumuzun şəxsi heyəti cəsarətlə, qorxmadan vuruşdu, düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur etdi.

Qubadlının əsasən dağlıq ərazi və strateji yüksəkliklərdən ibarət olduğunu nəzərə alan yuxarı komandanlığın hazırladığı əməliyyat planına əsasən, ilk növbədə, rayon ərazisindəki dağ zirvələrinin, strateji yüksəkliklərin düşməndən təmizlənməsi tapşırığının verilməsi faktı xüsusi olaraq vurğulanmalıdır.

Döyüşlərin getdiyi günlərdə Müdafiə Nazirliyinin yaydığı məlumatlara və döyüşlərin iştirakçısı olmuş hərbi qulluqçuların söhbətlərinə əsaslanaraq demək olar ki, oktyabrın 13-ü və 14-də düşmən üzərində atəş və hava üstünlüyü saxlanılmaqla qoşunlarımız bir neçə istiqamətdə, eləcə də Qubadlı rayonu istiqamətində əks-hücum əməliyyatını davam etdirib. Ordumuzun həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində qısa bir zamanda ətrafdakı bir neçə strateji yüksəklik, o cümlədən rayonun ən hündür zirvələrindən biri olan Qartiz dağı düşməndən təmizləndi və bölmələrimiz orada tərtibləndi. Ermənistan silahlı qüvvələrinin ehtimal edilən əks-hücumlarının qarşısını almaq üçün az bir zaman kəsiyində bölmələrimiz nəzarətə götürülmüş yüksəkliklərdə möhkəmləndi.

Sonrakı günlərdə Ermənistan ordusunun bölmələri dəfələrlə itirdiyi mövqeləri bərpa etməyə cəhd etsə də, döyüşçülərimizin cəsarəti, şücaəti sayəsində ordumuz düşmənin bu cəhdinin qarşısını da uğurlu aldı. Yüksəkliklər qoşunlarımızın nəzarətinə keçdikdən sonra artıq ordumuz taktiki üstünlüyü tam ələ aldı və rayon ərazisindəki bütün hərəkətə nəzarət hərtərəfli təmin edildi.

Bundan sonra əks-hücumu davam etdirən qoşunlarımız rayon ərazisində bir neçə əlverişli hakim yüksəklikləri də azad etməyə nail oldu. Artıq düşmənin bu istiqamətdə məğlub olacağına heç bir şübhə qalmamışdı və Ermənistan ordusunun rəhbərliyi də müqavimətin mənasız olduğunu anlamışdı. Qubadlı uğrunda döyüşlərdə ordumuzun dəqiq zərbələri nəticəsində düşmən xeyli sayda canlı qüvvə, silah-sursat və hərbi texnika sarıdan itkilər verdi.

Növbəti günlərdə ordumuzun gücü qarşısında tab gətirə bilməyən düşmən bir sıra mühüm yüksəkliklərdən geri çəkilməyə məcbur edildi. Artıq ordumuzun şəxsi heyətinin döyüş əzmini real olaraq öz üzərində hiss edən düşmən döyüşə girməkdən imtina etməyə də başlamışdı, öz silahtexnikasını ataraq qaçırdı. Qubadlının azad edilməsi uğrunda döyüşlərdə düşmənin xeyli sayda silah-sursatı, tank və artilleriya qurğuları, eləcə də digər hərbi vasitələri qənimət olaraq götürüldü.

Oktyabrın 23-də artıq Qubadlı rayonunun 4 kəndi işğaldan azad olundu. Sonrakı günlərdə də yüksək döyüş ruhu, qələbə əzmi nümayiş etdirən bölmələrimiz Vətən müharibəsinin 29-cu günü, oktyabrın 25-də Qubadlı rayonunun bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etdi. Şəhərin mərkəzində Azərbaycan bayrağı qaldırıldı və Ali Baş Komandana məruzə edildi. Qubadlının azad edilməsi barədə cənab Prezidentin özünün rəsmi tviter səhifəsində paylaşdığı təbrik və qələbə müjdəsi bütün xalqımız tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 25 oktyabr - Qubadlı Şəhəri Günü kimi təsis edildi.

Sonrakı günlərdə də artıq mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələrinin bölmələrinə sarsıdıcı zərbələr vuruldu və torpaqlarımızın azad edilməsi uğrunda döyüşlər davam etdi.

Bu gün qürur hissi ilə deyə bilərəm ki, digər döyüşlərdə olduğu kimi, Qubadlı istiqamətində də ordumuzun nümayiş etdirdiyi igidlik və peşəkarlıq düşmənin canına qorxu saldı. Bu döyüşlərdəki uğurumuz digər istiqamətlərdəki qələbələrimizə stimul oldu.

Sentyabrın 27-də düşmənin genişmiqyaslı təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsində qoşunlarımız 44 gün ərzində bir çox yaşayış məntəqələrimizlə yanaşı, Qubadlı şəhərini və rayonun 41 kəndini işğaldan azad etdi.

Qubadlı rayonunun azad edilməsi uğrunda igidliklə vuruşan silahdaşlarımızın əməyinin Müzəffər Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilməsi, onlara fəxri adların verilməsi, orden və medallara layiq görülməsi minnətdarlıq hissi doğuran məqamdır və daima xüsusi olaraq vurğulanmalıdır. Sözün həqiqi mənasında, Vətən müharibəsi günlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qələbə müjdəli müraciətlərini, paylaşımlarını xalqımız səbirsizliklə gözləyirdi və izdihamla qeyd edirdi. Vətən müharibəsindən illər ötsə belə, Şanlı Zəfərimizdə əməyi olanlar heç vaxt unudulmayacaq, ölkəmizin azadlığı və suverenliyi yolunda canından keçən soydaşlarımızın xatirəsi daima ehtiramla anılacaqdır.

**İsa İSMAYILOV**
**ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist**

# Qubadlının azad edilməsi planı strateji hədəflərdən biri idi

Azərbaycanın cənub-qərbində yerləşən Qubadlı rayonu hər zaman ölkəmiz üçün mühüm strateji, mədəni və iqtisadi əhəmiyyətə malik olub. Qarabağla Zəngəzur silsiləsi arasında əlaqənin təmin edilməsində əsas rol oynayan Qubadlı nəqliyyat infrastrukturu baxımından əlverişli ərazi sayılıb. Vətənimizin bir sıra rayonlarını birləşdirən mühüm yollar Qubadlıdan keçir.

Qubadlı təbii gözəllikləri və mədəni irsi ilə tanınır. Rayonun dağlıq relyefi əkinçilik, heyvandarlıq və üzümçülük üçün çox yararlıdır. Digər qədim tarixə malik rayon və şəhərlərimiz kimi, Qubadlı da məscidlər, karvansaraylar və orta əsr qalaları kimi çoxsaylı tarixi və memarlıq abidələrinə ev sahibliyi edirdi. Birinci Qarabağ müharibəsinə qədər burada, əsasən kənd təsərrüfatı və yerli sənətkarlıqla məşğul olan 30 minə yaxın azərbaycanlı yaşayırdı...

1980-ci illərin sonundan Ermənistan ölkəmizə qarşı ərazi iddialarını təxribatlara çevirməyə başladı. Sovet İttifaqının dağılması ilə Ermənistan bölgədəki separatçı qüvvələri dəstəkləyərək hərbi təxribatlara əl atdı.

Qarabağın Azərbaycanın bir hissəsi olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınmış sərhədlərə baxmayaraq, 1990-cı illərin əvvəllərində erməni silahlı qüvvələri təkcə Qarabağı deyil, həm də Qubadlı da daxil olmaqla, Azərbaycanın ətraf yeddi rayonunu da işğal etmək niyyətini göstərdi. Birinci Qarabağ müharibəsi başladı. Münaqişə nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilərək regionda genişmiqyaslı humanitar böhrana səbəb oldu...

Müharibə və post-müharibə dövrlərində Qubadlıda yaşayış binalarının əksəriyyəti dağıdılmış və yararsız vəziyyətə düşmüşdü. Yollar, elektrik şəbəkələri, su təchizatı, inzibati binalar və digər əsas infrastruktur və zədələnmiş, ya da tamamilə dağıdılmışdı. İşğalda olan bir çox rayonlar kimi, Qubadlı da praktiki olaraq təcrid olunmuş və iqtisadi cəhətdən iflic vəziyyətinə düşmüşdü. Bütöv Qarabağ bölgəsi və ətraf 7 rayonda Azərbaycanın mədəni irsinin mühüm hissəsini təşkil edən çoxsaylı tarix və mədəniyyət abidələri dağıdılmışdı. Qubadlının işğalı təkcə rayonun iqtisadiyyatına deyil, həm də tarixi abidələrinin, məscidlərinin dağıdılması nəticəsində sarsıdılmış mədəni kimliyinə də təsir göstərmişdi.

Daha öncə qeyd edildiyi kimi, Ermənistanın işğalçılıq ambisiyaları və qeyri-insani üsullarla apardığı müharibə irimiqyaslı humanitar fəlakətlərə gətirib çıxartdı ki, onun da əsas qurbanları ərazidə yaşayan dinc sakinlər idi. Evini, mülkünü, dədə-baba yurdunu itirən insanlar geri qayıda, normal həyat tərzini bərpa edə bilməyib son dərəcə çətin vəziyyətə düşmüşdülər. Onlar Azərbaycanın müxtəlif bölgələrində qaçqın kimi məskunlaşıb, ilk zamanlarda mənzil, ərzaq və tibbi xidmət çatışmazlığı ilə üzləşdilər. Bu səbəbdən doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın ehtiyaclarını ödəmək üçün həm hüquqi, həm də sosial-iqtisadi sahədə böyük işlər görülməli idi ki, bu məsələni Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz nəzarətinə götürdü. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən istahatlar məcburi köçkünlərin sosial problemlərinin həlli, infrastrukturun yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və həyat şəraitinin yüksəldilməsində əhəmiyyətli rol oynadı.

Çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə baxmayaraq, münaqişə 30 ilə yaxın müddətdə həll olunmamış qaldı. Azərbaycan BMT-nin işğal olunmuş ərazilər üzərində suverenliyini təsdiq edən qətnamələrinə arxalanaraq, bu illər ərzində ərazi bütövlüyünün bərpası istiqamətində diplomatik səylərini davam etdirdi. Münaqişənin sülh yolu ilə həllinə və qaçqınların öz evlərinə qaytarılmasına çağırışlar edilsə də, diplomatik səylər heç bir nəticə vermədi.

Bu illər ərzində atəşkəsin mövcudluğuna baxmayaraq, Ermənistan silahlı qüvvələri dəfələrlə yeni təxribatlar törədir, Vətənimizə qarşı ərazi iddialarından əl çəkmirdi. Növbəti genişmiqyaslı təxribatlardan birinin nəticəsində, 2020-ci il sentyabrın 27-də başlayan bütün cəbhə boyu əks-hücum əməliyyatı Vətən müharibəsinə çevrildi. Qarabağın cənub-qərbində yerləşən Qubadlının azad edilməsi planı strateji hədəflərdən biri idi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı azad etdi, dünyaya yeni dövrün müharibəsinin nümunəsini göstərdi.

Oktyabrın ortalarında Azərbaycan Ordusu cənub-qərb istiqamətində əks-hücumu gücləndirdi. Əsas strateji mövqe tutan Qubadlı şiddətli döyüşlərin meydanına çevrildi. Rəşadətli Azərbaycan Ordusu düşmənin müdafiə istehkamlarını güclü artilleriya və pilotsuz uçuş aparatlarının köməyi ilə məhv etdi. Bu əks-hücum nəticəsində Qubadlı rayonunun bir sıra yaşayış məntəqələri azad edildi.

2020-ci il oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndinin və Qubadlı şəhərinin işğaldan azad edildiyini açıqladı. Qubadlının işğaldan azad edilməsi müharibə dövründə mühüm nailiyyətə və ərazi bütövlüyünün bərpa olunmasının simvollarından birinə çevrildi.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# "Texnikanın daim saz vəziyyətdə saxlanılması döyüş tapşırığının icrasında mühüm amildir"



Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılmasını təmin edən əsas amillərdən biri də silah və döyüş texnikasının mövsümə uyğun istismara hazır vəziyyətdə olmasıdır. Ordumuzun arsenalında olan silah və döyüş texnikasının saz vəziyyətdə qorunub saxlanılması, dayanıqlı və fasiləsiz istifadə edilməsi, baş verə biləcək hər hansı nasazlığın əvvəlcədən müəyyən olunaraq aradan qaldırılması məqsədilə onlara vaxtlı-vaxtında planlı və lazımi texniki qulluq göstərilir.

Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının payız-qış mövsümünə keçirilir. Qeyd olunan mövsümdə fasiləsiz və dayanıqlı istismarı təmin etmək məqsədilə bütün hərbi hissə və bölmələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilirlər. Tədbirlər çərçivəsində, həmçinin döyüş növbətçiliyi aparan şəxsi heyətin ərzaq təminatı, isti geyim və yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun olaraq bölmələrə çatdırılır. Yüksək dağlıq və sərt iqlim şəraitində xidmət aparan hərbi qulluqçulara normadan əlavə təminat və təchizat vasitələri də ayrılır.

"N" hərbi hissəsinin avtomobil parkında şəxsi heyət payız-qış mövsümünə keçidlə əlaqədar olaraq texnikalara texniki xidmət göstərirdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elvin Əhmədov söhbətimiz zamanı bildirdi ki, texnikanın daim saz vəziyyətdə saxlanılması döyüş tapşırığının icrasında mühüm amildir. "Çünki yaranmış nasazlığın vaxtında aradan qaldırılmaması döyüş tapşırığının icrasının gecikməsi ilə nəticələnə bilər və bu, öz növbəsində ciddi problemlərə gətirib çıxarır. Ona görə də biz nəzəri və praktiki biliklərimizi dərindən mənimsəməli, təhkim olunmuş silah və texnikaya lazımi səviyyədə zəruri qulluq göstərməyi bacarmalıyıq".

Digər həmsöhbətimiz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Qüdrət Süleymanov qeyd etdi ki, döyüş texnikasının texniki vəziyyətinə, hissə və mexanizmlərin, eləcə də yeriyən və digər hissələrin saz vəziyyətdə saxlanılmasına və texniki qulluğun göstərilməsinə xüsusi diqqət etmək lazımdır. "Döyüş texnikasının hərəkətini fasiləsiz və tam təmin etmək məqsədilə onun istifadə qaydalarını, texniki hissəsini dərindən öyrənməlisən. Görülən təminat və təchizat işləri, texnikaya qulluq bölmələrin döyüş qabiliyyətinin artırılmasına şərait yaradır".



Xidmət yoldaşlarının dediklərini təsdiqləyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ülvi Əhmədzadə isə vurğuladı ki, döyüş texnikasına mövsümi tələblərə uyğun olaraq texniki qulluğun göstərilməsi, onun hissə və mexanizmlərinin dəyişdirilməsi üçün zəruri vasitələr, ehtiyat hissələri və avadanlıqlarla təmin olunmuşuq. "Bölməmizin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün xidməti vəzifələrimizi məsuliyyətlə yerinə yetiririk. Texnikaların payız-qış mövsümündə fasiləsiz və düzgün istismarını təmin etmək məqsədilə yanacaq-sürtgü materiallarını mövsümə uyğun dəyişdirir, elektrik və hidravlik sistemlərin istismara yararlılığını yoxlayırıq. Hər bir heyət üzvü döyüş maşınının hərəkət hissəsinə fərdi və qrup şəklində nəzarət edir, zəruri qulluq göstərir".



Hərbi hissədə görülən işlər onu deməyə əsas verir ki, Azərbaycan Ordusunda silah və texnikanın payız-qış mövsümündə istismar rejiminə keçidi ilə bağlı təmir məntəqələrində texniki xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb. Bu məntəqələrdə düzgün texniki qulluğun göstərilməsi bölmələrimizin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına imkan yaradır. Döyüş qabiliyyəti yüksək səviyyədə olan Azərbaycan Ordusu isə istənilən tapşırığı yerinə yetirməyə hər an hazırdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Məişət*

# "Hərbi qulluqçulara xidmətdən qürur duyuruq"

*Azərbaycan Ordusunda şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, onların təmiz, səliqəli hərbi mundirdə xidmət etməsinə də diqqət yetirilir. Hərbi mundirin müqəddəsliyi onun səliqəli olması ilə şərtlənir. Səliqəli geyinmiş hərbçi düşüncələrdə səliqəli (nümunəvi) əsgər təəssüratı yaradır, onun qətiyyətinə, sədaqətinə inanırsan.*

Hərbi hissələrdə şəxsi heyətin səliqəli geyim, təmiz yataq dəstləri ilə təmin olunması üçün bütün lazımi şərait yaradılıb. İndi bölmələrdə avtomatlaşdırılmış müasir elektrik avadanlıqları ilə təchiz olunmuş camaşırxanalar fəaliyyət göstərir. Onların fəaliyyəti hərbi hissənin xidmətinin yardımçısıdı; tapşırılanları təlimata müvafiq yerinə yetirmək məhz belə adlandırılır...

Hamam günlərində bölmələrin camaşırxanaya göndərdiyi çirkli paltarlar müəyyən edilmiş müddətdə yuyulur, ütülənir, bölmələrə təhvil verilir. Təmiz paltarlar isə saxlanc otağında saxlanılır, hamam günlərində şəxsi heyətə paylanılır. Belə üsul əsgərlərin təmiz və səliqəli geyinməsini təmin edir. Yataq dəstləri də vaxtlı-vaxtında dəyişdirilir. Belə bir şəraitin hərbi xidmətə təsiri danılmazdır.





Əmrulla Əmirəliyev dedi ki, belə məsuliyyətlə işləmək bizim xidmətimizdir. "Bizə elə gəlir ki, kollektiv olaraq hərbi xidmətdəyik, hərbçilərimizə xidmət bizim hərbi xidmətimizdi. Əsgərlərimiz səliqəli, təmiz geyinirsə, onlara verilən yataq dəstləri, əl-üz və hamam dəsmalları təmiz olursa, deməki, yaxşı işləyirik - yaxşı xidmət edirik. Bir dəfə qadın işçilərimizdən birinə təşəkkür etdim. Azca gülümsündü, sonra "Oğluna qulluq edən anaya təşəkkür düşürmü?" - deyə soruşdu. Mən də gülümsündüm. Həmin işçimizin dediyi kəlmələr bu gün də yaddaşlardadı..."

Ütüləyici Aytən Pənahova dedi ki, əsgərlərin paltarını ütüləyəndə mənə elə gəlir ki, o paltarlara ana nəfəsi hopur. "Səhərisi gün səliqəli geyinmiş əsgərləri görəndə yuyuculara da, quruduculara da ürəyimdə bir ana təşəkkürü edirəm".

Düşünürəm ki, ananın gümanlarını əsgərlər də hiss edirlər.

Camaşırxanada işləyənlər bu əqidə ilə işləyirlər. Deyirlər ki, tarixi Zəfər qazananlarımıza minnətdarlığımızı onların davamçılarına belə çatdırırıq. Bizə elə gəlir ki, qalib əsgərlərimiz də bizim bugünkü əsgərlərə xidmətimizə sevinirlər. Onların hər biri hər birimizin oğlu oldu. Oğulların ruhu həmişə anaların yanındadı. Biz işimizlə qürurlanırıq ki, qalib ordumuzun hərbi qulluqçularına xidmət edirik...

Südabə Əşrəfova da belə dedi, Banu Kərimova da, Həqiqət Məmmədova da. Hərbi hissədə anaların dedikləri də, gördükləri iş də bizə gözəl könül xoşluğu verdi. O könül xoşluğunu söhbətləşdiyimiz əsgərlərlə səxavətlə paylaşdıq...

Güclü ordumuzun hərbi hissələrində hərbi xidmətin müəyyən məqamları bütövlükdə Azərbaycan Ordusunda hərbi xidmətin səviyyəsinin göstəricisidir; ordumuzda hərbi xidmət ordu quruculuğunun yeni mərhələsinin tələbləri səviyyəsindədir.

**Rəşid HÜSEYNOV**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**Mövzu:** Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri

**Suallar:**

**1. Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında.**

**2. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.**

### Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin əsas qanunu Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya layihəsi hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu ilin 18 martında və 2016-cı ilin 26 sentyabrında keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

**Azərbaycan Respublikasında hakimiyyətin mənbəyi haqqında:**

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Siyasi əsaslar:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildir.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**İqtisadi əsaslar:**

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Dövlət mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir.

### Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Azərbaycan Ordusunun yaradılması zəruri oldu. Bu, həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Azərbaycan Ordusunun formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi. Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının əsas qanunu - Konstitusiyasında da Silahlı Qüvvələr və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaratdığı, Silahlı Qüvvələrin isə Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olması, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir.

76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr oldu. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biridir. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və Azərbaycan Ordusunun daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir.

Bu gün Azərbaycan Ordusu müasir texnika, silah və sursatla təchiz olunmuş, zabit kadrları ilə komplektləşmiş, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Qoşun, birlik və birləşmələrdə şəxsi heyətin nizam-intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Hərbi İnstitutda müasir standartlara cavab verən tədris bazası mövcuddur. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı Fərmana əsasən, yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası hazırda Hərbi İdarəetmə İnstitutu kimi öz fəaliyyətini uğurla davam etdirir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli missiyasını uğurla davam etdirir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar, şəxsi heyət arasında azərbaycançılıq, hərbi vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, peşəkar zabit korpusunun formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, əməliyyat imkanlarının artırılması, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasəti Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə böyük qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri, 2020-ci ildə ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı Vətən müharibəsi, eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19-20 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. İgid hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin canı-qanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikası və silahların effektiv tətbiqi üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır və Azərbaycan Ordusunun daha güclü olmasına öz töhfəsini verir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Hərbi hissənin yaranmasının ildönümünə həsr olunan tədbir keçirilib

"N" hərbi hissənin yaranmasının 26-cı ildönümünə həsr olunan tədbir keçirilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Polkovnik Seymur Həbibullahov hərbi hissənin şəxsi heyətini əlamətdar gün münasibətilə təbrik edib, müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyevin təbrikini şəxsi heyətin diqqətinə çatdırıb.



Tədbir iştirakçılarına hərbi hissənin yaranması tarixi və keçdiyi döyüş yolu haqqında məlumat verilib. Hərbi hissənin keçmiş döyüşçüləri, ehtiyatda olan zabitlər hərbi hissənin yarandığı ilk illərdə keçdikləri ağır və çətin döyüş yolları ilə bağlı xatirələrini bölüşüblər.

Sonra xidmətdə fərqlənən hərbi qulluqçulara fəxri fərmanlar təqdim olunub.

Tədbir iştirakçılarına Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən təqdim olunan konsert proqramı böyük coşqu ilə qarşılanıb.

**"Azərbaycan Ordusu"**





## Müdafiə Nazirliyi sürücü vəzifələrində xidmət etmək istəyənlərin qəbulunu elan edir

Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə sürücü vəzifələrində xidmət etmək (işləmək) üçün C, D və E kateqoriyalı sürücülər tələb olunur.

50 yaşınadək olan mülki şəxslər, həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları (uyğunsuzluqla ehtiyata buraxılanlar istisna olmaqla), həmçinin ehtiyatda olan hərbi vəzifəlilər Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərlər.

Tələb olunan sənədlər:
- C, D və ya E kateqoriyalı sürücülük vəsiqəsi;
- şəxsiyyət vəsiqəsinin surəti;
- hərbi biletin surəti;
- tərcümeyi-hal;
- rəngli fotoşəkil (2 ədəd 3x4 və 2 ədəd 4.5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji xəstəliklərin olmaması barədə) arayış.

Sənəd qəbulunun həyata keçiriləcəyi ünvan: Biləcəri qəsəbəsi, X.Natəvani küçəsi 1 (Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi).

Müraciət etmə vaxtı: həftəiçi (bazar və bayram günlərindən başqa) saat 09:00-dan 18:00-dək, şənbə günləri saat 09:00-dan 13:00-dək.

## Arxeoloqlar itmiş dağ şəhərlərinin qalıqlarını tapıblar



Arxeoloqlar Özbəkistanın cənub-şərqindəki sıldırımlı dağlarda qədim İpək Yolunun üstündə yerləşən orta əsr şəhərlərinin qalıqlarını aşkar ediblər. Onlardan biri uzun əsrlər boyu gizli qalmış, çox az adamın qədim sivilizasiyaların əlamətlərini tapacağını gözlədiyi yerdə hündürlükdə yerləşən o dövrün böyük şəhəridir.

AZƏRTAC "National Geographic" saytına istinadla xəbər verir ki, beynəlxalq arxeoloji ekspedisiya dron texnologiyası sayəsində min ildən çox əvvəl Orta Asiyanın ucqar dağlarında mövcud olmuş və sonradan tərk edilmiş şəhərlər barədə fərziyyələri araşdırıblar.

"National Geographic Explorer"in tədqiqatçısı Maykl Fraçetti və Özbəkistan Milli Arxeologiya Mərkəzinin direktoru Farhod Maksudovun rəhbərlik etdiyi ekspedisiya VI-XI əsrlərdə çiçəklənən səs-küylü bir şəhərin qalıqlarını tapıb. Bu yaşayış məskəni 7200 fut hündürlükdə yerləşir və Peru And dağlarında Maçu Pikçu ilə müqayisə edilə bilər. Bu kəşf Avropanı birləşdirən qədim ticarət yollarının geniş şəbəkəsi olan İpək Yolu boyunca orta əsr şəhərlərinin xüsusiyyətlərinə, miqyasına və yüksəlişinə dair məlumatları zənginləşdirir.

Təxminən 300 hektar ərazini əhatə edən qədim Tuqunbulak şəhərinin xarabalıqları onun dövrünün ən böyük regional yaşayış məntəqələrindən biri olduğunu göstərir.

Vaşinqton Universitetinin antropologiya kafedrasının dosenti Maykl Fraçetti deyir: "Dron bizə orada nəhəng bir şəhərin izləri olduğunu göstərdi. Eyni zamanda, yeni texnologiya sayəsində bu nəhəng mənzərənin miqyasını heyrətamiz detallarla qiymətləndirə bildik".

Təxminən üç mil uzaqlıqda yerləşən və daha kiçik, sıx tikililəri olan Taşbulak adlı şəhər də təfərrüatlı 3D ölçülü xəritələr yaratmaq üçün işıqdan istifadə edən uzaqdan zondlama metodu vasitəsilə tədqiq olunur.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ordusu Suriya və İraqda bir sutka ərzində 59 terrorçunu məhv edib



İlkin məlumatlara görə, Türkiyə Hərbi Hava Qüvvələrinin İraqın şimalında və Suriyada PKK terrorçularının 47 hədəfinə endirdiyi zərbələr nəticəsində, iki cinayətkar təşkilatın liderləri də daxil olmaqla, 59 terrorçu məhv edilib.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat verib.

Nazirlik qeyd edib ki, oktyabrın 23-ü axşam saatlarında həyata keçirilən hava əməliyyatı çərçivəsində terrorçuların sığınacaqları və silah-sursat anbarları, o cümlədən digər texnikaları məhv edilib.

Türkiyənin milli müdafiə naziri Yaşar Güler cümə axşamı səhər saatlarında bildirib ki, İraq ərazisində 29, Suriyada isə 18 hədəfə hava zərbələri endirilib.

"Türkiyə təhdidlərə boyun əyməyib və boyun əyməyəcək", - deyən nazir bölgədə antiterror əməliyyatlarının davam etdiriləcəyini vurğulayıb.

### Xəzər dənizində desant kateri suya buraxılıb



Aktau limanında "Şapşan" sürətli nəqliyyat-desant kateri təntənəli şəkildə Xəzər dənizinə buraxılıb.

Qazaxıstanın Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, tədbirdə Manqistau vilayətinin akimatının (yerli idarəetmə orqanı - red.), Müdafiə Nazirliyinin, istehsalat müəssisəsinin, Hərbi Dəniz Qüvvələrinin rəhbərliyi, dənizçilər və silahlı qüvvələrin veteranları iştirak ediblər.

Kater dörd ekipaj üzvü üçün nəzərdə tutulub. Onun desant tutumu 20 dəniz piyadaçısı, kruiz məsafəsi 450 mil və sürəti 45 düyündür.

Təxribat əleyhinə kater dənizdə və çay mənsəblərində əməliyyatların keçirilməsi, desantın təchiz olunmamış sahilə daşınması və çıxarılması, atəş dəstəyi, tibbi təxliyə və çətin vəziyyətdə olanlara yardım üçün nəzərdə tutulub.

### NATO Rusiya ilə sərhəddə böyük artilleriya təlimi keçirəcək



NATO Rusiya ilə sərhəddəki Rovayarvi poliqonunda "Lightning Strike 24" adlı ən böyük artilleriya təlimi keçirəcək. Təlim noyabrın 4-dən 28-dək davam edəcək.

Bu barədə məlumat Finlandiya Müdafiə Nazirliyinin rəsmi saytında dərc olunub.

Təlimlərdə Finlandiya, ABŞ, İsveç, Estoniya, Böyük Britaniya və Fransadan 3600-ə yaxın hərbçinin iştirak edəcəyi bildirilir. Qeyd olunur ki, "Lightning Strike 24" alyansın tarixində Avropada keçirilən ən böyük artilleriya atış seriyası olan "Dynamic Front 25" təlimlərinin bir hissəsidir.

"Təlimin məqsədi Finlandiyanın müttəfiqləri və tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində şimaldakı əməliyyat zonasında müdafiə qabiliyyətini nümayiş etdirmək, həmçinin əməliyyat komandanlığı və nəzarətini həyata keçirməkdir", - deyə Finlandiya Müdafiə Nazirliyi bildirib.

### Media: HƏMAS hərəkatı səhra komandirlərinin 30 faizini itirib



2023-cü ilin oktyabrından bəri İsrailin hərbi əməliyyatları nəticəsində HƏMAS hərəkatının hərbi qanadı səhra komandirlərinin azı 30 faizini, həmçinin Qəzza zolağında yeraltı tunellərin 40 faizə qədərini itirib.

Bu barədə Birləşmiş Ərəb Əmirliklərinin "The National" qəzeti öz mənbələrinə istinadla məlumat yayıb.

Qəzetin həmsöhbətlərinin fikrincə, HƏMAS döyüşçüləri arasında da itkilər çoxdur. Hərəkat bir müddətdir ki, "silah və sursat ehtiyatlarını əhəmiyyətli dərəcədə artıra" bilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Abışov Bəxtiyar Rövşən oğluna verilmiş AD № 0052824 nömrəli və əsgər Məmmədov Natiq Fikrət oğluna verilmiş AD № 0052824 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Pirimov Etibar İsgəndər oğluna verilmiş MV № 124728 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № **361**
Sifariş № **645**
Nüsxə **4650**